**AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL NAZİİLIYİ**

**BAKI İDARƏETMƏ VƏ TEXNOLOGİYA KOLLECİ**

# "KULTURALOGİYA" FƏNNİNİN İŞ PLANI

# (SİLLABUS)

**Müəllim:________ F. Fərəcova**

**Bakı -2020**

**SİLLABUS**

# AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

## BAKI İDARƏETMƏ VƏ TEXNOLOGİYA KOLLECİ

(Orta ixtisas təhsili müəssisəsinin adı)

## ___“ KULTURALOGİYA” __

(Fənnin adı)

**Sillabus B İ və T K «Humanitar və iqtisadiyyat» fənn birləşməsinin iclasında “ 15 ” sentyabr 2017 -ci ildə təsdiq olunmuş proqram əsasında tərtib edilmişdir**

**__ Fərəcova Fəqumə Vidadi qızı tərəfindən hazırlanıb__**

(müəllimin soyadı, adı, atasının adı)

**2020-ci il**

# 1.Müəllim haqqında məlumat

## 1.MÜƏLLİM HAQQINDA MƏLUMAT

**Soyadı: _____Fərəcova ________________________________**
**Adı: _____Fəqumə ____________________________________**
**Atasının adı:_____Vidadi _____________________________________**
**Təhsili: _____Ali________________________________________**
**Elmi adı: ________________________________________________**
**Vəzifəsi: _____Müəllim____________________________________**
**Əlaqə rekvizitləri:___051-317-29-37 _________**
**Gün ərzində kollecdə olduğu vaxt:____$08^{30}$- $18^{50}$________________**
**Təltiflər: ___________________________________________________**
**Xarici dil:____rus _______________________________________**

# 2.Fənn haqqında məlumat

**Fənnin kodu: ____ HFS -B04____________________________**
**Fənnin növü:___________Humanitar____________________________**
**Fənnin tədri ili:_______________2020____________________________**
**Auditoriya:____________ _________________№__ _______________**
**Fənnin krediti:____4 __________________________________________**
**Fənnin tədris yükü (saat):____60________________________________**
**Fənnin prerekviziti:_Fənnin tədrisi üçün öncədən tədrisi zəruri olan fənn____yoxdur._____________________________________________**
**Fənnin tədris forması:__qarışıq (mühazirə; məşqələ)____________**

## 3.FƏNNİN ƏSAS MƏQSƏDİ



Mənəvi ehtiyaclar milli-mədəni mühütin xüsusiyyətləri ilə müəyyənləşir. Hər bir xalq öz mənəvi və maddi mədəniyyətini dünya mədəniyyətinin təcrübəsi və nailləyyət-lərindən faydalanaraq, öz köklərindən ayrılmadan inkişaf etdirməlidir. Bu sahədə bilikləri qazanaraq dərk edilməsində “mədəniyyətşünaslıq” fənninin tədrisi zəruridir. Ona görə də, yetişməkdə olan gənc nəsli xalqın sosial-mənəvi mənşəyini, mədəniyyətini, mədəniy-yət tarixini öyrədilməli, mədəni tələbat meyllərini müəyyənləşdirilməlidir. “Mədəniyyətşünaslığ”ın predmetini mədəniyyət, cəmiyyətdə onun yeri və rolu, inkişaf istiqamətləri, hansı səviyyələrdə mövcudluğu və s. təşkil edir. Mədəniyyətin tarixi inkişaf meyllərinin xarakterini, mərhələlərini, mədəniyyət və sivilizasiyasının daxili vəhdətini, qarşılıqlı əlaqə və fərqini, ona yanaşma metodlarını əks etdir. Bəşər tarixində elə bir dövr olmamışdır ki, mədəniyyət məsələləri orada öz əksini tapmasın. Çünki, mədəniyyət kainatda insanın yaranması ilə bir zamanda meydana gəlmişdir. Dəyişən hər bir əsr in-sanların şüur və fəaliyyətində dəyişikliklər yaratdıqca onların maddi həyat tərzi də dəyişmiş, dünyagörüşləri, həyata baxışları dövrün tələbinə uyğun şəkildə inkişaf etmişdir. Hər bir tarixi dövr, cəmiyyətin hər bir özünəməxsus forması bu mənada özgün mədə-niyyətə malik olmuşdur. Mədəniyyətin ümumbəşəri məna və məzmununu tədqiq edən, onun cəmiyyətin bütün sahələrində yerini və rolunu göstərən mədəniyyətşünaslıq ifadəsi “kulturologiya” sözünün tərcüməsidir. Latınca “culture”, yunanca “logos” (təlim, elm) sözlərinin birləşməsindən yaranan “Mədəniyyətşünaslıq” termini “mədəniyyət haqqında elm” mənasını ifadə edir. “Kultur” termininin ilk dəfə Qədim Romada işlənir. Termin Roma siyasətçiləri və filosoflarından əvvəlcə Katon, sonralar isə Mark Tullis Sisseron (b.e.ə.45–ci illər)tərəfindən işlənmişdir.Avropada “mədəniyyət” termini bəşər tarixinin keçdiyi üç dövrün - vəhşilik, barbarlıq, sivilizasiya - üçüncü mərhələsini bildirmək üçün qəbul olunmuşdur və onu bu mənada ilk dəfə 1767-ci ildə Şotland filosofu A.Fergüson işlətmişdir. Sonralar görkəmli Amerika etnoqrafı, arxeoloqu, ibtidai icma cəmiyyəti üzrə tarixçi Lüis Henri Morqan (1818 -1881) bu bölgünü daha da əsaslandırmışdır. İslam Şərqində “mədəni” termini ərəblərdən alınmış və aşağıdakı I. şəhərli, qəsəbəli 2. oturaq, yəni, köçəri olmayan mənaları ifadə etmişdir. Müxtəlif dövrlərdə yuxarıda qeyd etdiyimiz alim və mütəfəkkirlər tərəfindən işlənməsinə baxmayaraq bu termin keçən əsrin əvvəllərində Amerika alimi Lesli Uayt (1900-1975) tərəfindən elm kimi tədqiq olunmağa başlanmışdır. Öz təlimini “kulturologiya” adlandıran alim bildirdi ki, bu termin həm insan cəmiyyətini, həm də onun mədəniyyətini əks etdirir.



## 4.FƏNNİN TƏDRİSİ NƏTİCƏSİNDƏ ƏLDƏ OLUNAN KOMPETENSİYALAR

Kompetensiya - fənnin mənimsənilməsi nəticəsində əldə olunan bilik, bacarıq və vərdişlərin praktiki tətbiqidir. Ümumi kompetensiyalar bilik üzərində əsaslan-mış müasir cəmiyyətdə peşəkar və şəxsi sahədə özünü uğurla reallaşdırmaq üçün lazım olan şəxsi, metodiki və sosial kompetensiyalardır. Fənn kompetensiyaları fənn bacarıqlarının mənimsənilməsini təmin edən nəzəri, praktiki və ya eksperi-mental biliklər və bacarıqlar deməkdir. «Mədəniyyətşünaslıq» fənninin tədrisi prosesində aşağıdakı

BİLİK | BACARIQ | VƏRDİŞLƏR

ƏLDƏ EDİR

Mədəniyyətşünaslıq bir elm kimi ümumbəşəri və milli mədəni proseslərin obyektiv qanunauyğunluğu, insanların maddi və mənəvi həyatının mühüm hadisələrini öyrənməyə cəhd edir. Mədəniyyətşünaslıq insan nəslinin mədəni qayda və tələbatlara yiyələnməsi zərurətini araşdırır, mədəni-mənəvi irsin yaranıb formalaşdığı mühiti və ilkin şərtləri öyrənir. Bu məqsədlə mədəniyyatşünaslıq bir elm kimi aşağıdakı vəzifələri öhdəsinə götürür:

- Mədəniyyətin təkamül tarixi, tipləri, qanunauyğunluqları, strukturu və mahiyyətini araşdırmaq.
- Fənlərarası bilikləri əlaqələndirmək.
- Milli mədəniyyətlərin özgürlüyünü qorumaqla qloballaşdırılmasına imkan yaradıl-ması. Mədəni cərəyan və tendensiyaların inkişaf dinamikasını izləmək və perspek-tivlərini araşdırmaq və s.
- Mədəniyyətin inkişaf mərhələləri barədə məlumat vermək;

a) Qədim Şərq mədəniyyəti;b)Antik mədəniyyət; v) Orta əsrlər mədəniyyəti; q) İntibah dövrünün mədəniyyəti; d) Yeni dövr (burjua) mədəniyyəti; e) Sosialist mədəniyyəti; ə) Müstəqillik dövrünün mədəniyyəti

*Fənnin tədrisi gedişində tələbələrin mənəvi-əxlaqi tərbiyəsi ilə əlaqədar işlərlə də məşğul olmaq və onların müstəqil Azərbaycan respublikasının mədəni hüquqi demokratik və dünyəvi dövlət kimi formalaşmasında fəal iştirak etməsinə çalışmaq.
* Mənbələrlə işləmək bacarığı aşılamaq;
* Öyrəniləcək mövzuya marağı artırmaq;
* Müasir informasiya vasitələrindən istifadə etmək; *
Mövzu ilə bağlı qoyulmuş problemlərin həllinə dair tələbələrdə öz fikirlərini yazılı şəkildə ifadə etmək bacarığı aşılamaq. tələbələrdə bacarığın test, kompüter, referat, müstəqil iş formasını inkişaf etdirmək.

Tədris prosesi zamanı aşağıdakı tədris metodlarından istifadə edilir:

- dialoq forması (nəzəri izahatlar və praktik nümunələrlə);
- müzakirə forması (fərdi çıxışlarla bağlı disputların aparılması, məruzələrin, esselərin və referatların müzakirəsi); -
- tələbələrin müstəqil işi (tövsiyə olunan ədəbiyyatın tədqiqi, referat yazmaq, seminar məşğələlərinə məruzələr hazırlamaq)

## 5.FƏNNİN XARAKTERİSTİKASI
## FƏNNİN ÖYRƏNİLMƏSİNİN TƏQVİM PLANI

| № | Mövzunun adı | Ayrılan saatlar | | Tədrisin forması |
|---|---|---|---|---|
| | | Mühazirə | Seminar | |
| 1 | Mədəniyyət anlayışı və kulturalogiyanın predmeti. Maddi və mənəvi mədəniyyət. | 2 | 2 | qarışıq |
| 2 | Mədəniyyətin strukturu, funksiyaları və inkişaf qanunları. | 2 | 2 | "____" |
| 3 | Mədəniyyət və sivilizasiya. Qərb və Şərq mədəniyyəti. | 2 | 2 | "_____" |
| 4 | Təbiət, cəmiyyət və şəxsiyyətin mədəniyyəti. | 2 | 2 | "_____" |
| 5 | Kulturalogiya və insan kapitalının inkişafı. | 2 | 2 | "_____" |
| 6 | Mədəniyyətin etnik milli xüsusiyyətləri. | 2 | 2 | "_____" |
| 7 | İdarəetmə və texnologiyalara yiyələnmək mədəniyyəti. İiderlik mədəniyyəti. | 2 | 2 | "_____" |
| 8 | Kulturalogiya və modelləşdirmə. | 2 | 2 | "_____" |
| 9 | İşgüzar münasibətlər mədəniyyəti. | 2 | 2 | "_____" |
| 10 | Mədəniyyətin yayılma sistemi. Mədəniyyət və dil. Semiotika və işarələr mədəniyyəti. | 2 | 2 | "_____" |
| 11 | Mədəniyyət elmi bilik və dini etiqad. | 2 | 2 | "_____" |
| 12 | Gender mədəniyyəti. Ailə mədəniyyəti. | 2 | 2 | "_____" |
| 13 | Mədəniyyət siyasəti. | 2 | 2 | "_____" |
| 14 | Mədəniyyət və qloballaşma. | 2 | 2 | "_____" |
| 15 | Multikulturalizm. | 2 | 2 | "_____" |
| | | | | |
| | | | | |
| | **Cəmi** | **30** | **30** | |
| | | | | |
| | **Yekun** | **60** | | |
| | | | | |

## 6.FƏNN ÜZRƏ SƏRBƏST İŞLƏRİN MÖVZU

Fənn üzrə semestr ərzində hər tələbəyə bir sərbəst iş verilir. Sərbəst iş 0-10 bal arası qiymətləndirilir.

| № | Mövzuların adı | Qeyd |
|---|---|---|
| 1 | Mədəniyyət anlayışı və kulturologiyanın predmeti. | |
| 2 | Mədəniyyətin funksiyaları və inkişaf qanunları | |
| 3 | Mədəniyyət və sivilizasiya. | |
| 4 | Qərb mədəniyyəti | |
| 5 | Şərq mədəniyyəti | |
| 6 | Mədəniyyətin formaları | |
| 7 | Elitar mədəniyyət | |
| 8 | Mədəniyyət və şəxsiyyət | |
| 9 | Mədəniyyət və təbiət | |
| 10 | Mədəniyyət və şəxsiyyət | |
| 11 | İdarəetmə və texnologiyalara yiyələnmək mədəniyyəti. | |
| 12 | Liderlik mədəniyyəti | |
| 13 | Kulturologiya və modelləşdirmə | |
| 14 | Mədəniyyətin etnik milli xüsusiyyətləri | |
| 15 | Mentalitet anlayışı | |
| 16 | Kulturologiya və insan kapitalının inkişafı | |
| 17 | İşgüzar münasibətlər mədəniyyəti | |
| 18 | Mədəniyyət və dil. | |
| 19 | Semiotika və işarələr mədəniyyəti | |
| 20 | Gender mədəniyyəti. | |
| 21 | Ailə mədəniyyəti | |
| 22 | Mədəniyyət siyasəti | |
| 23 | Mədəniyyət və qloballaşma . | |
| 24 | Multikulturalizm | |
| 25 | Özünüidarə mədəniyyəti | |

Hər bir sərbəst iş tələbənin fərdi fikrinin məcmusu olduğuna görə **plagiat** yol verilməzdir.

## 7.TƏLƏBƏNİN NAİLİYYƏTLƏRİNİN CARİ VƏ ARALIQ QİYMƏTLƏNDİRİLMƏSİ

Fənn üzrə krediti toplamaq üçün lazımi balın toplanması aşağıdakı kimi olacaq:

- 50 bal- imtahana qədərki bal;
- 10 bal - dərslərə davamiyyətə görə (fənn üzrə ayrılmış auditoriya saatlarının 25 faizindən çoxunda iştirak etməyən tələbə həmin fən-dən imtahana buraxılmır);
- 10 bal - tələbənin sərbəst işinə görə;
- 30 bal - laboratoriya dərslərinin nəticələrinə görə (fənn üzrə kurs işi və məşğələ dərsi nəzərdə tutulmadığı halda).

## 8.TƏHSİLALMA PROSESİNƏ NƏZARƏT VƏ TƏLƏBƏLƏRİN BİLİYİNİN YEKUN QİYMƏTLƏNDİRİLMƏSİ

Tələbənin biliyinin yekun qiymətləndirilməsi imtahan zamanı 50 bal və imta-hana qədər 50 bal toplanan ballar cəmi 100 bala bərabərdir. Yekun bal aşağıdakı kimi qiymətləndirilir:

A - “Əla” -91-100
B - “Çox yaxşı” -81-90
C - “Yaxşı” -71-80
D - “Kafi” -61-70
E - “Qənaətbəxş” -51-60
F - “Qeyri-kafi” - 51 baldan aşağı

Yekun qiymətləndirmə 51 bal və ondan yuxarı bal toplayn tələbə fənn üzrə müəyyən olunmuş krediti qazanır və müvəffəqiyyət qazanan tələbə, 51 baldan aşağı bal toplayan tələbə isə həmin fəndən krediti qazanmır və akademik borcu olan tələbə adlanır.

## 9.İSTİFADƏ OLUNAN ƏDƏBİYYAT


1. Мирзаджанзаде Азад « о пути XXI века» Баку, 2001.
2. «Этюды о гуманитарном образовании» Баку,1993.
3. Bayramov Q. Mənəvi həyatda millilik və beynəlmiləlçilik. Bakı, 1980.
4. Çərkəsov B. Beynəlmiləl tərbiyə və incəsənət. Bakı, 1986.
5. Əliyev Q.C., Tağıyev Ə.M., Bayramov M.İ.Mədəniyyətşünaslığın əsasları.Bakı,1999
6. Əliyev Ə. Mənəvi mədəniyyət və din. Bakı, Azərnəşr, 1981.
7. Əhmədov Ə. Mənəviyyat, gözəllik, tərbiyə. Bakı, Maarif, 1993.
8. Fərəcova F. "Mədəniyyətşünasliq". Bakı, 2016
9. Məmmədov F. "Kulturalogiya". Bakı, 2008.
10. Məmmədov S. Mədəniyyətşünaslıq. Bakı, 2001.
11. Xəlilov C.Ə. Maddi mədəniyyət abidələrin əhəmiyyəti və mühafizəsi. Bakı. 1961
12. Yadigar Türkel. İnsan, təbiət və cəmiyyət. Bakı, 1994.
13. Yadigar Türkel. İnsan, təbiət və cəmiyyət münasibətləri. Biososial və fəlsəfi aspektlər. Bakı, İşıq, 1998.
14. Yusifov X. Şərqdə intibah və Nizami Gəncəvi. Bakı, 1982.


- Fənnin bütün movzuları üzrə mühazirə mətnləri elektron formada kollecin saytında yerləşdirilib.

## 10.TƏLƏBƏNİN NİZAM - İNTİZAMINA QOYULAN TƏLƏBLƏR

- Pedaqoji işçilərin şərəf və ləyaqətinə hörmətlə yanaşmaq;
- Təhsil müəssisəsinin nizamnaməsinə uyğun olaraq, ictimai asayiş və daxili intizam, davranış qaydalarının tələblərinə riayət etmək;
- Auditoriya daxili təlim məşğələlərində iştirak etmək, müvafiq tədris plan-larında və kursların işçi proqramlarında nəzərdə tutulmuş bütün növ tapşı-rıqları müəyyən edilmiş dövrlərdə yerinə yetirmək;
- Kollecin otaqlarına, tədris - laboratoriya avadanlığına, cihazlara, dərs vəsa-itlərinə, kitablarına və digər əmlakına qayğı və səliqə ilə yanaşmaq, onların korlanmasına, zədələnməsinə və itməsinə yol verməmək, otaqlarında onların təmizliyə və səliqəyə riayət etmək.